I BÖLMƏ.
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İNKİŞAFI VƏ YAŞIL ENERJİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

UOT 338.45:332.1

Səbinə İzzət qızı VƏLİYEVA
Azərbaycan Kooperasiya Universiteti,
iqtisad elmləri doktoru, professor
E-mail: sivaliyeva77@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.17

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ ONUN REGİONAL İQTİSADİ ARTIMA TƏSİRİ

Xülasə

Tədqiqatın məqsədi. Bu məqalədə işğaldan azad olunmuş ərazilərdə qeyri-neft sektorunun inkişaf perspektivləri və regional iqtisadi artıma təsiri kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat çərçivəsində kənd təsərrüfatı, sənaye, turizm, logistika və nəqliyyat infrastrukturu sahələrinin inkişaf imkanları araşdırılmış, regionun iqtisadi potensialının ölkənin ümumi sosial-iqtisadi inkişafına təsiri qiymətləndirilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, işğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə reinteqrasiyası qeyri-neft sektorunun genişlənməsinə, məşğulluğun artmasına və ixrac potensialının yüksəlməsinə mühüm töhfə verir.

Tədqiqatın metodologiyası. əsas etibarı ilə sistemli yanaşma, müqayisəli təhlil, statistik məlumatların təhlili, iqtisadi qiymətləndirmə metodu, rəsmi hesabat və elmi mənbələrin analizi və ümumiləşdirmə kimi metodlardan formalaşdırılmışdır. Məlumat bazası kimi dövlət proqramları, statistik göstəricilər, beynəlxalq hesabatlar və elmi ədəbiyyatlardan istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti. İşğaldan azad olunmuş ərazilərdə qeyri-neft sektorunun inkişafı regionların iqtisadi reinteqrasiyasını sürətləndirməklə yanaşı, ölkənin iqtisadiyyatının diversifikasiyasına və davamlı inkişafına mühüm təsir göstərir. Aqrar sektorun, sənayenin və turizmin inkişafı yeni iş yerlərinin yaradılmasına, əhalinin sosial rifahının yüksəlməsinə və regional iqtisadi fəallığın artmasına şərait yaradır. Eyni zamanda nəqliyyat-logistika layihələrinin reallaşdırılması Azərbaycanın regional tranzit imkanlarını genişləndirir.

Tədqiqatın nəticələri. Tədqiqat nəticələri göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yüksək iqtisadi potensiala malikdir və bu potensialın səmərəli istifadəsi qeyri-neft sektorunun inkişafını sürətləndirən əsas amillərdən biridir. Müasir infrastrukturun qurulması, investisiya mühitinin yaxşılaşdırılması və innovativ texnologiyaların tətbiqi regionun uzunmüddətli iqtisadi inkişafını təmin edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Təqdim olunan tədqiqat işğaldan azad olunmuş ərazilərin qeyri-neft sektorunun inkişaf istiqamətlərini kompleks şəkildə araşdıraraq regional iqtisadi inkişafın yeni modellərini elmi baxımdan əsaslandırır. Məqalə post-münaqişə dövründə iqtisadi reinteqrasiya və davamlı inkişaf siyasətinin formalaşdırılması baxımından nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Açar sözlər: Qarabağ, Şərqi Zəngəzur, qeyri-neft sektoru, iqtisadi inkişaf, regional inteqrasiya, investisiya, məşğulluq, logistika.

Giriş

Məqalədə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının qeyri-neft sektorunun inkişaf potensialı, regionlarda iqtisadi fəaliyyətin bərpası, yeni iş yerlərinin yaradılması və bu prosesin Azərbaycanın ümumi iqtisadi inkişafına təsiri tədqiq edilmişdir [1; 2]. Araşdırmada kənd təsərrüfatı, sənaye, turizm, logistika və nəqliyyat infrastrukturu sahələrinin inkişaf imkanları təhlil olunmuşdur [3; 5]. Eyni zamanda regionların bərpası çərçivəsində həyata keçirilən dövlət proqramları, investisiya təşviqləri və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinin əsas istiqamətləri araşdırılmışdır (1). Müəyyən edilmişdir ki, işğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə reinteqrasiyası qeyri-neft sektorunun genişlənməsinə, məşğulluğun artmasına, ixrac potensialının yüksəlməsinə və ÜDM-in artımına mühüm töhfə verəcək dir [2; 7].

Azərbaycan Respublikasının Vətən müharibəsində əldə etdiyi tarixi qələbə nəticəsində işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma prosesinə başlanılmışdır [1]. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən iqtisadi dövriyyəyə cəlb olunması ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir [2]. Uzun illər ərzində işğal altında qalmış bu ərazilərdə infrastrukturun dağıdılması, kənd təsərrüfatı torpaqlarının istifadəsiz qalması, sənaye obyektlərinin sıradan çıxması regionun iqtisadi potensialının zəifləməsinə səbəb olmuşdur [3].

Hazırda dövlət tərəfindən həyata keçirilən kompleks bərpa siyasəti regionların iqtisadi reinteqrasiyasını, qeyri-neft sektorunun inkişafını, yeni iş yerlərinin yaradılmasını və əhalinin doğma torpaqlarına qayıdışını təmin etməyə yönəlmişdir [1; 2]. Bu baxımdan işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Müasir tədqiqatlarda qeyd olunur ki, postmünaqişə dövründə iqtisadi reinteqrasiya prosesinin uğuru infrastrukturun bərpası, investisiya axınının təşviqi və yerli iqtisadi resursların səmərəli idarə olunmasından birbaşa asılıdır [11, s.84-86].

Azərbaycanın işğaldan azad olunmuş əraziləri zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi, məhsuldar torpaq fondu və geniş turizm potensialı ilə seçilir. Bu ərazilərin iqtisadi dövriyyəyə qaytarılması yalnız regional inkişaf baxımından deyil, həm də ölkə iqtisadiyyatının şaxələndirilməsi strategiyasının həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan yeni nəqliyyat-kommunikasiya infrastrukturu, beynəlxalq hava limanları, avtomobil və dəmir yolları regionun daxili və xarici bazarlarla inteqrasiyasını sürətləndirir. Bununla yanaşı, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi, yaşıl enerji zonalarının formalaşdırılması və müasir istehsal sahələrinin yaradılması regionun innovativ inkişaf modelinə uyğun şəkildə yenidən qurulmasına şərait yaradır. Bu proseslər qeyri-neft sektorunun rəqabət qabiliyyətinin yüksəlməsinə, özəl investisiyaların cəlb edilməsinə və uzunmüddətli iqtisadi artımın təmin olunmasına xidmət edir. Beləliklə, işğaldan azad edilmiş ərazilərin inkişaf perspektivlərinin araşdırılması Azərbaycanın regional inkişaf siyasətinin effektivliyinin qiymətləndirilməsi və gələcək iqtisadi strategiyaların müəyyənləşdirilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

İşğaldan azad olunmuş ərazilərin qeyri-neft sektoru üzrə inkişaf potensialı

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi, münbit torpaq resursları və geniş istehsal imkanları ilə Azərbaycanın qeyri-neft sektorunun inkişafında strateji əhəmiyyətə malikdir [3; 5]. Uzun illər işğal altında qalmasına baxmayaraq, bu ərazilər yüksək iqtisadi potensialını qoruyub saxlamış və post-münaqişə dövründə ölkənin iqtisadi inkişafının əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Regionların iqtisadi dövriyyəyə yenidən inteqrasiyası iqtisadiyyatın diversifikasiyası, regional inkişafın sürətləndirilməsi və qeyri-neft ixracının artırılması baxımından mühüm əhəmiyyət daşıyır [2].

İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı ilk növbədə aqrar sektorun inkişaf imkanları ilə xarakterizə olunur. Regionun əlverişli torpaq-iqlim şəraiti taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, meyvəçilik və heyvandarlıq sahələrinin inkişafı üçün geniş imkanlar yaradır [5]. Qarabağ

bölgəsi tarixən Azərbaycanın mühüm kənd təsərrüfatı mərkəzlərindən biri olmuş, xüsusilə üzümçülük və heyvandarlıq sahələri yüksək məhsuldarlıq göstəriciləri ilə seçilmişdir. Tədqiqatlar göstərir ki, işğaldan əvvəl Qarabağ və Şərqi Zəngəzur ərazilərində torpaq-iqlim şəraiti üzümçülük, taxılçılıq və heyvandarlığın inkişafı üçün əlverişli olmuş, bu sahələr regionun iqtisadi strukturunda aparıcı mövqe tutmuşdur [10, s.38-44].

İşğal dövründə kənd təsərrüfatı infrastrukturu dağıdılmış, əkin sahələrinin əhəmiyyətli hissəsi istifadədən kənarda qalmış və suvarma sistemləri sıradan çıxmışdır. Nəticədə Azərbaycanın kənd təsərrüfatı istehsalına ciddi iqtisadi ziyan dəymişdir [7].

Qarabağın dağlıq hissəsi və onun ətrafındakı yeddi rayon zəngin təbii resurslarla zəngindir ki, bu da Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək və vətəndaşlarının rifahını artırmaq imkanı yaradır. İşğal nəticəsində 647,9 min hektar münbit torpaq zərər görmüşdür, bunun çox hissəsi kənd təsərrüfatı üçün yararlıdır. Birinci Qarabağ Müharibəsindən əvvəl bu bölgədə 199 min hektar torpaq əkinçilik məqsədilə istifadə olunurdu. Ümumilikdə 1,7 milyon hektar ərazi işğal olunmuş, ancaq indi bu sahələr Azərbaycanın kənd təsərrüfatı üçün geri qaytarılıb. Bu, bitkiçilikdən sənaye və kənd təsərrüfatı məhsullarının hazırlanmasına qədər istehsal zəncirinin bərpa olunmasına şərait yaradacaq.

Bu isə ölkəyə qayıtmaq istəyən vətəndaşlar üçün yeni iş imkanları deməkdir. Sovet dövründə işğaldan əvvəl Cəbrayıl və Füzuli rayonlarında sakinlər üzümçülük, heyvandarlıq, taxılyetişdirmə, ipəkçilik və digər kənd təsərrüfatı sahələri ilə məşğul olurdular [11, s.217-218].

Məlumata görə, işğal nəticəsində ölkənin əkin üçün yararlı torpaqlarının 10 faizdən çoxu istifadədən çıxmış, əkin sahələrinin təxminən 18 faizi iqtisadi dövriyyədən kənarda qalmışdır [7]. Bununla yanaşı, meşə ehtiyatlarının məhv edilməsi, torpaqların ekoloji çirklənməyə məruz qalması və su resurslarının qeyri-qanuni istismarı regionun ekoloji və iqtisadi tarazlığına mənfi təsir göstərmişdir [3]. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının yenidən formalaşdırılması yalnız iqtisadi inkişaf baxımından deyil, həm də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır [5].

Qarabağ regionunda 250 min hektardan artıq əkinə yararlı torpaq sahəsinin mövcudluğu aqrar sektorun sürətli inkişafı üçün geniş imkanlar yaradır [5]. Dövlət tərəfindən həyata keçirilən aqrar siyasət çərçivəsində torpaqların minalardan təmizlənməsi, meliorasiya və irriqasiya sistemlərinin bərpası, fermerlərə subsidiya və güzəştli kreditlərin verilməsi kənd təsərrüfatının inkişafını sürətləndirən əsas amillər sırasındadır [1; 5]. Eyni zamanda “ağıllı kənd” konsepsiyasının tətbiqi, rəqəmsal texnologiyaların və innovativ idarəetmə mexanizmlərinin istifadəsi kənd təsərrüfatında məhsuldarlığın artırılmasına və resurslardan daha səmərəli istifadəyə şərait yaradır.

Regionun qeyri-neft sektorunun inkişafında sənaye sahəsi də mühüm yer tutur. İşğaldan azad olunmuş ərazilərdə mövcud təbii resurslar emal sənayesinin inkişafı üçün əlverişli zəmin formalaşdırır. Xüsusilə tikinti materialları istehsalı, qida sənayesi, kənd təsərrüfatı məhsullarının emalı və yüngül sənaye müəssisələrinin yaradılması regionun sənaye potensialının genişlənməsinə imkan verir.

Ağdam Sənaye Parkı və digər iqtisadi zonaların yaradılması yerli istehsalın artırılmasına, investisiyaların cəlb edilməsinə və ixracyönümlü məhsul istehsalının genişlənməsinə xidmət edir [2]. Sənaye zonalarının fəaliyyətə başlaması regionda istehsal kooperasiyasının genişlənməsinə, sahibkarlığın inkişafına və əlavə dəyər yaradan müəssisələrin formalaşdırılmasına imkan verəcəkdir [11, s.226-229].

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərin turizm potensialı da qeyri-neft sektorunun inkişafında mühüm istiqamətlərdən biri hesab edilir. Şuşa, Kəlbəcər, Laçın və Zəngilan rayonları zəngin tarixi-mədəni irsi, əlverişli təbii-landşaft xüsusiyyətləri, mineral su ehtiyatları və biomüxtəlifliyi ilə seçilir [2; 3].

Xüsusilə Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması regionun turizm imkanlarının genişlənməsinə mühüm təkan vermişdir. Dağ turizmi, ekoturizm, sağlamlıq turizmi və qış turizmi istiqamətlərində həyata keçirilən layihələr regionun beynəlxalq turizm bazarına

inteqrasiyası üçün geniş perspektivlər yaradır.

İşğaldan azad olunmuş ərazilərdə nəqliyyat və logistika infrastrukturunun yenidən qurulması da qeyri-neft sektorunun inkişafına mühüm təsir göstərir. Yeni avtomobil yollarının, dəmir yolu xətlərinin və hava limanlarının tikintisi regionun iqtisadi fəallığını artırmaqla yanaşı, daxili və xarici bazarlara çıxış imkanlarını genişləndirir. Xüsusilə Zəngəzur nəqliyyat dəhlizinin perspektivləri Azərbaycanın regional tranzit imkanlarını artıraraq ölkənin beynəlxalq logistik mərkəzə çevrilməsinə şərait yaradır [6].

Beləliklə, işğaldan azad olunmuş ərazilərin zəngin iqtisadi potensialı qeyri-neft sektorunun inkişafı üçün mühüm imkanlar formalaşdırır. Dövlət tərəfindən həyata keçirilən kompleks bərpa və inkişaf siyasəti regionların iqtisadi reinteqrasiyasını sürətləndirərək Azərbaycanın dayanıqlı iqtisadi inkişafına və iqtisadiyyatın diversifikasiyasına mühüm töhfə verir.

İşğaldan azad olunmuş ərazilərdə yeni iş yerlərinin yaradılması və sosial-iqtisadi inkişaf

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma tədbirləri regionun sosial-iqtisadi inkişafının təmin edilməsində və məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır [2; 4]. Müharibədən sonra dağıdılmış infrastrukturun yenidən qurulması, yaşayış məntəqələrinin bərpası, nəqliyyat-kommunikasiya sistemlərinin modernləşdirilməsi və istehsal sahələrinin yaradılması iqtisadi fəallığın artmasına və yeni əmək bazarının formalaşmasına şərait yaradır [4; 7]. Bu proses həm yerli əhalinin məşğulluğunun təmin olunmasına, həm də regionun ümumi iqtisadi potensialının genişlənməsinə xidmət edir.

Azad olunmuş ərazilərdə həyata keçirilən iri infrastruktur layihələri minlərlə yeni iş yerinin yaranmasına səbəb olmuşdur. Bərpa və yenidənqurma layihələrinin iqtisadi təsiri yalnız tikinti mərhələsi ilə məhdudlaşmır, həmin layihələr gələcəkdə xidmət, nəqliyyat və istehsal sektorlarında davamlı məşğulluq imkanlarının formalaşmasına da şərait yaradır [9, s.201-204]. Xüsusilə avtomobil yollarının, dəmir yolu xətlərinin, körpülərin, elektrik yarımstansiyalarının, su təchizatı sistemlərinin və beynəlxalq hava limanlarının tikintisi tikinti, xidmət, logistika və sənaye sektorlarında məşğulluğun artmasına müsbət təsir göstərir [4]. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının istifadəyə verilməsi regionun iqtisadi əlaqələrinin genişlənməsinə və investisiya cəlbediciliyinin yüksəlməsinə şərait yaratmışdır [2].

Dövlət tərəfindən həyata keçirilən “Böyük Qayıdış” proqramı işğaldan azad olunmuş ərazilərin sosial dirçəlişinin əsas istiqamətlərindən biri hesab olunur [1]. Proqram çərçivəsində əhalinin doğma torpaqlarına mərhələli şəkildə qayıdışı təmin edilir, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar və sosial xidmət obyektləri inşa olunur. Bu tədbirlər regionlarda dayanıqlı məskunlaşmanın təmin edilməsinə, sosial rifahın yüksəldilməsinə və insan kapitalının inkişafına mühüm töhfə verir [2; 5]. Əhalinin geri qayıdışı ilə paralel olaraq iqtisadi fəallığın artması yerli bazarların formalaşmasını sürətləndirir və kiçik sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır [11, s. 256-259]. Eyni zamanda, əhalinin geri qayıdışı kənd təsərrüfatı, ticarət, xidmət və kiçik sahibkarlıq sahələrinin inkişafını sürətləndirir.

İşğaldan azad edilmiş ərazilərdə sənaye parklarının və iqtisadi zonaların yaradılması regionun iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Ağdam Sənaye Parkı, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı və digər sənaye məkanları qeyri-neft sənayesinin inkişafına, yerli və xarici investisiyaların cəlb edilməsinə, yeni istehsal müəssisələrinin yaradılmasına və ixracyönümlü məhsul istehsalının genişləndirilməsinə imkan yaradır [2; 7]. Bu sənaye zonalarında tikinti materialları, kənd təsərrüfatı məhsullarının emalı, logistika və yüngül sənaye sahələrinin inkişaf etdirilməsi nəzərdə tutulur ki, bu da regionda uzunmüddətli məşğulluğun təmin edilməsinə şərait yaradır.

İnvestisiya mühitinin keyfiyyəti regionun iqtisadi inkişaf tempini müəyyən edən əsas amillərdən biri hesab olunur və investorlar üçün hüquqi, maliyyə və institusional təminatların mövcudluğu xüsusi əhəmiyyət daşıyır [12, s.22].

Bununla yanaşı, azad olunmuş ərazilərdə “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyalarının tətbiqi innovativ iqtisadi modelin formalaşmasına səbəb olur. Qarabağ və Şərqi Zəngəzurda rəqəmsal

idarəetmə, yaşıl enerji texnologiyaları və innovativ məskunlaşma modellərinin tətbiqi regionların dayanıqlı inkişafına xidmət etməklə yanaşı, yeni iqtisadi fəaliyyət sahələrinin formalaşmasına və məşğulluğun artmasına şərait yaradır [9, s.214-216].

Rəqəmsal texnologiyaların, alternativ enerji mənbələrinin və müasir idarəetmə sistemlərinin tətbiqi regionun davamlı inkişafını təmin etməklə yanaşı, yüksək ixtisaslı işçi qüvvəsinə tələbatı artırır [5]. Bu yanaşma gələcəkdə regionun rəqabətqabiliyyətli iqtisadi məkana çevrilməsinə və ölkənin qeyri-neft sektorunun inkişafında strateji rol oynamasına imkan yaradacaqdır. Regionların iqtisadi potensialının reallaşdırılması investisiya aktivliyinin yüksəlməsinə, qeyri-neft sektorunda rəqabət qabiliyyətinin güclənməsinə və ölkənin davamlı iqtisadi inkişaf hədəflərinə nail olunmasına mühüm töhfə verəcəkdir [11, s.332-334].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ÜDM-ə təsiri

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının mövcud iqtisadi potensialının bərpası və səmərəli istifadəsi Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) artımına mühüm töhfə verəcək əsas amillərdən biri hesab olunur [2; 7]. Regionların zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi, kənd təsərrüfatına yararlı torpaq sahələri, faydalı qazıntı yataqları və turizm resursları ölkənin qeyri-neft sektorunun inkişafı baxımından geniş imkanlar yaradır [5]. Qarabağda həyata keçirilən yeni layihələr sayəsində Azərbaycanda iqtisadi inkişaf o qədər yüksəlməlidir ki, 2020-ci ildə ÜDM-in kəskin azalmasından sonra bu il 2,7% artım gözlənilir. Bu gün müəyyən bir əraziyə və ya regiona investisiya yatırımı ölkəmizin qarşısında duran mühüm məsələlərdən biridir. Uğurlu investisiya obyektlərinin yaradılması investisiya mühitinin yaxşılaşdırılmasına əlverişli imkanlar təqdim edir. Belə bir mühit, hər hansı ölkədə və ya regionda infrastrukturun keyfiyyətinə mühüm təsir göstərir. İnvestisiya səviyyəsini və bununla bağlı mümkün risklərin qiymətləndirilməsini müəyyən edən siyasətlər, sosial, maliyyə, iqtisadi və hüquqi amilləri əhatə edən bir sistem kimi qəbul olunur [12, s.22]. Bu potensialın iqtisadi dövriyyəyə cəlb olunması istehsal həcminin artmasına, yeni investisiya axınının formalaşmasına və regional iqtisadi fəallığın genişlənməsinə səbəb olacaqdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının yenidən inkişaf etdirilməsi ölkənin aqrar məhsul istehsalının artırılmasına və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm təsir göstərəcəkdir [5; 7]. Qiymətləndirmələrimizə görə, işğaldan azad olunmuş ərazilərin aqrar istehsal sisteminə tam inteqrasiyası ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə və qeyri-neft ixracının genişlənməsinə əhəmiyyətli töhfə verə bilər [10, s.40-42]. Taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və digər aqrar sahələrin inkişafı həm daxili bazarın tələbatının ödənilməsinə, həm də ixrac potensialının genişlənməsinə şərait yaradacaqdır. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması əlavə dəyər zəncirinin formalaşmasına və qeyri-neft sənayesinin inkişafına müsbət təsir göstərəcəkdir.

Regionların sənaye potensialının bərpası da ÜDM-in artımında mühüm rol oynayacaqdır. İşğaldan azad olunmuş ərazilərdə sənaye parklarının, iqtisadi zonaların və logistika mərkəzlərinin yaradılması yeni istehsal sahələrinin formalaşmasına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə və ixracyönümlü məhsul istehsalının artmasına imkan yaradır [2]. Xüsusilə tikinti materialları, dağmədən sənayesi, yüngül sənaye və kənd təsərrüfatı məhsullarının emalı istiqamətlərində həyata keçirilən layihələr regionun iqtisadi əhəmiyyətini daha da artırır.

Turizm sektorunun inkişafı da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ÜDM-ə təsir edən əsas istiqamətlərindən biridir. Şuşa, Kəlbəcər, Laçın və digər rayonların zəngin tarixi-mədəni irsi, təbii-landşaft xüsusiyyətləri, mineral su ehtiyatları və ekoturizm imkanları regionun beynəlxalq turizm mərkəzinə çevrilməsi üçün əlverişli şərait yaradır [3; s.5]. Turistlərin cəlb edilməsi baxımından Qarabağ və Şərqi Zəngəzurun təbiəti, tarixi abidələri, mədəni irsi üstünlük təşkil edir və həmin üstünlüklərdən yararlanmaq məqsədilə bir qrup istiqamətlər üzrə tədbirlərin görülməsi zəruridir: turizmə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi də daxil olmaqla həmin fəaliyyət sahəsinin müxtəlif növlərinin inkişafına dəstək göstərilməsi; tarixi-mədəni irs obyektlərinə investisiya qoyacaq investorların stimullaşdırılması baxımından münbit şəraitin yaradılması;

turizmin işguzar formasının fəal inkişafı, sərgi və konqres infrastrukturunun yaradılması; ayrı-ayrı turizm növləri üçün klasterlərin yaradılması; Şanlı Qələbəmiz də daxil olmaqla hadisə turizmi üçün obyektlərin müəyyənləşdirilməsi və onların təkmilləşdirilməsi [9, s. 275-276]. Turizmin inkişafı xidmət sektorunun genişlənməsinə, yeni iş yerlərinin yaranmasına və regionun iqtisadi gəlirlərinin artmasına səbəb olacaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının davamlı inkişaf modelində turizm klasterlərinin yaradılması, mədəni irs obyektlərinin bərpası və ekoturizm marşrutlarının formalaşdırılması regionun iqtisadi gəlirlərinin şaxələndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır [9, s.275-276].

Bununla yanaşı, Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması Azərbaycanın regional və beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə mühüm təsir göstərəcək strateji layihələrdən biridir [6]. Bu dəhliz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının inteqrasiyasını gücləndirərək yükdaşımaların həcmini artıracaq, tranzit gəlirlərinin yüksəlməsinə və logistika imkanlarının genişlənməsinə şərait yaradacaqdır [6]. Eyni zamanda, Zəngəzur dəhlizi Azərbaycanı regionun əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevirməklə ölkənin geoiqtisadi mövqeyini daha da gücləndirəcək və uzunmüddətli iqtisadi inkişaf perspektivlərini genişləndirəcəkdir.

Nəticə

Aparılmış tədqiqat göstərir ki, işğaldan azad olunmuş ərazilərdə qeyri-neft sektorunun inkişafı Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritet istiqamətlərindən biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının zəngin təbii resursları, münbit torpaq ehtiyatları, əlverişli coğrafi mövqeyi və geniş iqtisadi potensialı regionun davamlı inkişafı üçün mühüm imkanlar yaradır.

Tədqiqat nəticələri sübut edir ki, regionlarda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri kənd təsərrüfatı, sənaye, turizm və logistika sahələrinin inkişafına müsbət təsir göstərir. Müasir infrastrukturun qurulması, sənaye parklarının yaradılması, innovativ texnologiyaların tətbiqi və investisiya mühitinin yaxşılaşdırılması qeyri-neft sektorunun genişlənməsini sürətləndirən əsas amillər kimi çıxış edir.

Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəaliyyətin bərpası yeni iş yerlərinin yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və sosial rifahın yaxşılaşmasına şərait yaradır. “Böyük Qayıdış” proqramı çərçivəsində əhalinin doğma torpaqlarına qayıdışı regionların iqtisadi və sosial reinteqrasiyasını daha da sürətləndirir.

Araşdırma göstərir ki, nəqliyyat-logistika layihələrinin, xüsusilə Zəngəzur dəhlizinin reallaşdırılması Azərbaycanın regional tranzit imkanlarını genişləndirərək ölkənin geoiqtisadi mövqeyini gücləndirəcəkdir. Bu proses həm regional əməkdaşlığın inkişafına, həm də beynəlxalq ticarət əlaqələrinin genişlənməsinə mühüm töhfə verəcəkdir.

Nəticə etibarilə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə olunması qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, iqtisadiyyatın diversifikasiyasına, ixrac potensialının artmasına və ölkədə dayanıqlı iqtisadi artımın təmin edilməsinə mühüm təsir göstərəcəkdir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı Azərbaycanın gələcək iqtisadi strategiyasında xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər” haqqında Sərəncamı, 2 fevral 2021-ci il
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf perspektivləri. Bakı, 2023
3. Baxşəliyev R. Qarabağ iqtisadi rayonunun inkişaf perspektivləri. Bakı, 2021
4. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Dövlət büdcəsinin icrası haqqında hesabatlar. Bakı, 2021

5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. Aqrar inkişaf göstəriciləri üzrə statistik məlumatlar. Bakı, 2023
6. "Zəngəzur dəhlizinin Azərbaycan və region üçün əhəmiyyəti". Eurasian Research Institute, 2021
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın regionları üzrə statistik göstəricilər. Bakı, 2024
8. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyul 2021-ci il
9. Quliyev E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, Monoqrafiya, "Kooperasiya" nəşriyyatı, Bakı-2023, səh.319
10. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri // Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktik jurnal – 2020. № 4 (34), - s.38-44
11. Vəliyeva S.İ. Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin davamlı iqtisadi inkişaf perspektivləri, Monoqrafiya, "Kooperasiya" nəşriyyatı, Bakı-2024, səh. 375
12. Məmmədova E.B.. "Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemləri "mövzusunda doktorluq dissertasiyası, səh. 22

Сабина Иззат кызы Велиева
Азербайджанского Университета Кооперации,
доктор экономических наук, профессор
E-mail: sivaliyeva77@gmail.com

Перспективы развития ненефтяного сектора на оккупированных территориях и его влияние на региональный экономический рост

Резюме

Цель исследования: В данной статье всесторонне анализируются перспективы развития ненефтяного сектора на освобожденных территориях и его влияние на региональный экономический рост. В рамках исследования рассмотрены возможности развития сельскохозяйственного, промышленного, туристического, логистического и транспортного секторов, а также оценено влияние экономического потенциала региона на общее социально-экономическое развитие страны. В результате исследования установлено, что реинтеграция освобожденных территорий в экономический цикл вносит существенный вклад в расширение ненефтяного сектора, увеличение занятости и рост экспортного потенциала.

Методология исследования в основном формировалась с помощью таких методов, как систематический подход, сравнительный анализ, анализ статистических данных, метод экономической оценки, анализ и обобщение официальных отчетов и научных источников. В качестве базы данных использовались государственные программы, статистические показатели, международные отчеты и научная литература.

Прикладное значение исследования: Развитие несырьевого сектора на освобожденных территориях не только ускоряет экономическую реинтеграцию регионов, но и оказывает существенное влияние на диверсификацию и устойчивое развитие экономики страны. Развитие агропромышленного сектора, промышленности и туризма создает условия для создания новых рабочих мест, повышения социального благосостояния населения и увеличения региональной экономической активности. Одновременно реализация транспортно-логистических проектов расширяет региональные транзитные возможности Азербайджана.

Результаты исследования: Результаты исследования показывают, что Карабахский и Восточно-Зангезурский экономические регионы обладают высоким экономическим потенциалом, и эффективное использование этого потенциала является одним из главных факто-

ров, ускоряющих развитие несырьевого сектора. Строительство современной инфраструктуры, улучшение инвестиционного климата и применение инновационных технологий обеспечивают долгосрочное экономическое развитие региона.

Оригинальность и научная новизна исследования: Представленное исследование научно обосновывает новые модели регионального экономического развития путем всестороннего изучения направлений развития несырьевого сектора освобожденных территорий. Статья имеет теоретическое и практическое значение в контексте формирования политики экономической реинтеграции и устойчивого развития в постконфликтный период.

Ключевые слова: Карабах, Восточный Зангезур, не нефтяной сектор, экономическое развитие, региональная интеграция, инвестиции, занятость, логистика.

Sabina Izzat Valiyeva
Azerbaijan Cooperation University,
Doctor of Economic Sciences, Professor
E-mail: sivaliyeva77@

Development prospects of the non-oil sector in the occupied territories and its impact on regional economic growth

Summary

Purpose of the study: This article comprehensively analyzes the development prospects of the non-oil sector in the liberated territories and its impact on regional economic growth. Within the framework of the study, the development opportunities of the agricultural, industrial, tourism, logistics and transport infrastructure sectors were examined, and the impact of the region's economic potential on the overall socio-economic development of the country was assessed. As a result of the study, it was determined that the reintegration of the liberated territories into the economic cycle makes a significant contribution to the expansion of the non-oil sector, increasing employment and increasing export potential.

The methodology of the study was mainly formed by methods such as a systematic approach, comparative analysis, analysis of statistical data, economic evaluation method, analysis and generalization of official reports and scientific sources. State programs, statistical indicators, international reports and scientific literature were used as a database.

Applied significance of the study: The development of the non-oil sector in the liberated territories not only accelerates the economic reintegration of the regions, but also has a significant impact on the diversification and sustainable development of the country's economy. The development of the agricultural sector, industry and tourism creates conditions for the creation of new jobs, the improvement of the social welfare of the population and the increase in regional economic activity. At the same time, the implementation of transport and logistics projects expands the regional transit opportunities of Azerbaijan.

Research results: The study results show that the Karabakh and East Zangezur economic regions have high economic potential and the effective use of this potential is one of the main factors accelerating the development of the non-oil sector. The construction of modern infrastructure, improvement of the investment climate and the application of innovative technologies ensure the long-term economic development of the region.

Originality and scientific novelty of the study: The presented study scientifically substantiates new models of regional economic development by comprehensively examining the development directions of the non-oil sector of the liberated territories. The article is of theoretical and practical importance in terms of shaping economic reintegration and sustainable development policies in the post-conflict period.

Key words: Karabakh, Eastern Zangezur, non-oil sector, economic development, regional integration, investment, employment, logistics.